**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

**DOI:10.59610/bbu1.2026.1.2.**

*Xudiyev Aqşin Coşqun oğlu,*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*ORCID:https://orcid.org/0009-0005-3476-4089*
*E-mail: khudiev.aqshin@gmail.com*
*© Xudiyev A.C., 2026*

**JEL: M41**
**UOT: 657.37:005.94**

# MÜHASİBAT UÇOTUNDA GƏLİRLƏRİN UÇOTUNUN NƏZƏRİ ƏSASLARI

## X Ü L A S Ə

**Tədqiqatın məqsədi -** müasir mühasibat çərçivələri əsasında gəlirlərin uçotu ilə bağlı elmi-nəzəri yanaşmaları, müxtəlif uçot standartlarının gəlir anlayışına verdiyi tərifləri, tanınma meyarlarını və ölçmə metodlarını sistemləşdirərək gəlirlərin iqtisadi mahiyyətini daha dəqiq müəyyənləşdirməklə, müəssisələrin maliyyə hesabatlarının şəffaflığınn artırılmasına töhfənin verilməsidir.

**Tədqiqatın metodologiyası -** sistemləşdirmə, qruplaşdırma, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, iqtisadi təhlil, normativ-hüquqi analiz və s. metodlar.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** mühasibat uçotunda gəlirlərin tanınması və ölçülməsi prosesinin daha dəqiq, şəffaf və standartlara uyğun qurulmasını ön plana çəkməsi ilə əlaqədardır, mühasibat uçotu sahəsində nəzəri biliklərin dərinləşdirilməsi baxımından real tətbiq imkanı təqdim edir.

**Tədqiqatın nəticələri -** IFRS 15 standartının beş mərhələli modelinin gəlirlərin uçotunun aparılmasında optimal yanaşma kimi əsaslandırılmasıdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi -** gəlirlərin düzgün tanınması və ölçülməsi, qlobal iqtisadi dəyişikliklər və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tələblərinə uyğun, gəlirlərin uçotunun nəzəri əsaslarının sistemli şəkildə təhlili, müqayisəli araşdırılması, gəlir anlayışının elmi cəhətdən dəqiqləşdirilməsi həyata keçirilmişdir.

**Açar sözlər:** gəlir, gəlirlərin düzgün tanınması və ölçülməsi, gəlirlərin təsnifləşdirilməsi, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları, vergi hesabatları.

## G İ R İ Ş

Mühasibat uçotunda gəlirin uçotunun nəzəri əsasları iqtisadi və hüquqi yanaşmaların sintezi nəticəsində formalaşır. Qeyd etmək lazımdır ki, gəlirlərin uçotunun aparılması hər hansı bir müəssisənin fəaliyyətinin nəticələrinin ölçülməsi, maliyyə proseslərinin nəticələrinin analizi və qərar qəbul etmək üçün etibarlı, dəqiq informasiyanı təqdim edir. Bu baxımdan mühasibat uçotunda gəlirlərin uçotunun nəzəri əsasları Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS – IFRS 15) çərçivəsində geniş işlənir. IFRS 15-in 5 mərhələli gəlirin tanınması mexanizmi xidmət sahələrində Azərbaycan reallığında uçot-mühasibat mühitinə uyğunlaşdırılmış şəkildə verilib, bu da uçot prosesindəki qeyri-müəyyənliklərin azaldılmasına elmi əsas verir.

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

Gəlirlərin uçotunun aparılması təkcə maliyyə proseslərinin deyil, həm də iqtisadi artımın, eləcə də resurslardan effektiv istifadənin əsas göstəricisidir. Gəlirlərin uçotunun aparılması bir sıra fundamental prinsiplər əsasında həyata keçirilir. Bu prinsiplər əsasən gəlirin iqtisadi mahiyyətini, təsnifat prinsiplərini, ölçülmə metodlarını, tanınma meyarlarını əhatə edir.

**Tədqiqatın əsas məzmunu**

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS – IFRS 15) çərçivəsində gəlirlərin uçotu beynəlxalq təcrübəyə dayanaraq yaradılmış nəzəri baza əsasında həyata keçirilir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında da mühasibat uçotu fəaliyyəti beynəlxalq səviyyədə qəbul edilmiş standartlar əsasında həyata keçirilir. Ölkədə maliyyə hesabatlarının şəffaflığının təmin edilməsi məqsədilə nəzəri və hüquqi bazanın möhkəmləndirilməsi bilavasitə sahə üzrə beynəlxalq inteqrasiyanı sürətləndirməkdədir. Beləliklə, gəlirlərin uçotunun nəzəri əsaslarının müəyyənləşdirilməsi ümumilikdə mühasibat uçotunun həm nəzəri, həm də praktiki istiqamətlərinin inkişafına töhfə verir. Eyni zamanda, mühasibat uçotunda gəlirlərin uçotunun nəzəri əsasları müəssisələrin iqtisadi fəaliyyətinin daha obyektiv qiymətləndirilməsinə imkan yaradır.

İqtisadi və mühasibatlıq nəzəriyyələrində gəlir anlayışına müxtəlif aspektlərdən yanaşılmasına baxmayaraq, bu nəzəriyyələrdə gəlirlərin uçotunun müəssisənin fəaliyyətinin ölçülməsi və qiymətləndirilməsi baxımından ən optimal variant hesab edilir. Maliyyə hesabatlarının şəffaflığının təmin edilməsində investorların, kreditorların, sahibkarların və digər maraqlı tərəflərin düzgün qərar qəbul etməsinə şərait yaratması baxımından gəlirlərin uçotunun mahiyyətinin düzgün açıqlanması vacib şərtlərdəndir [1, s.194]. İqtisadi subyektlərin fəaliyyətinin maliyyə nəticələrini sistemli və obyektiv şəkildə əks etdirən mühasibat uçotu sisteminin əsas məqsədi müəssisənin gəlir və xərclərinin, öhdəliklərinin düzgün qeydiyyatını aparmaqla investorlara, rəhbərliyə və bütün digər maraqlı tərəflərə doğru qərar qəbul etməsi üçün etibarlı maliyyə informasiyası təqdim etməkdir. Bu baxımdan mühasibat uçotunun mərkəzi elementlərindən biri müəssisənin əsas fəaliyyətdən və digər əlavə fəaliyyətlərdən əlavə etdiyi pul vəsaitləri və ya əlavə iqtisadi faydalardır. Buna görə də, gəlirlərin uçotu mühasibatlığın elmi-nəzəri prinsipləri ilə sıx şəkildə bağlıdır. Mədaxil və xərclərin uyğunlaşdırılması prinsipi, müvafiqlik prinsipləri, maliyyə nəticələrinin davamlılığı və obyektivliyi prinsipi müəssisənin gəlirlərin uçotunun aparılmasında xüsusi əhəmiyyətə malikdir. Gəlirlərin yalnız onların baş verdiyi dövrdə iqtisadi subyektə aid olduğu halda tanınması müvafiqlik prinsipinin tələbidir. Müəssisənin maliyyə vəziyyətinin real mənzərəsinin təqdim edilməsi gəlir və xərclərin uyğunlaşdırılması prinsipi tərəfindən dəstəklənir. Eyni zamanda, müəssisənin gəlirlilik səviyyəsinin düzgün qiymətləndirilməsinə məhz mədaxil və xərclərin uyğunlaşdırılması prinsipi imkan yaradır.

Məlum olduğu kimi, mühasibatlıq praktikasında gəlirlər - əsas fəaliyyət gəlirləri, əlavə gəlirlər və gözlənilməz gəlirlər olaraq üç qrupda təsnifatlaşdırılır. Məsələn, hər hansı bir ticarət şirkətinin məhsul satışından əldə etdiyi gəlir onun əsas fəaliyyət gəliri hesab olunur. Əlavə gəlirlər isə birbaşa olaraq əsas fəaliyyətə aid olmayan, lakin müəssisəyə maliyyə faydası gətirən gəlirdir. Bu cür gəlirlərə investisiyalardan və ya faizlərdən əldə olunan gəlirləri aid etmək olar. Nadir hallarda əldə edilən gözlənilməz gəlirlər müəssisənin maliyyə hesabatlarında ayrıca qeyd olunur ki, müəssisənin gəlir göstəricilərinə təsiri düzgün şəkildə analiz olunsun.

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

Beləliklə, gəlirlərin tanınması üçün "hesablama prinsipi" ən geniş qəbul olunan metodlardan biridir. Bu prinsipə əsasən gəlir, ödənişin faktiki nə zaman daxil olmasından asılı olmayaraq, mal və ya xidmət üzərindəki nəzarət müştəriyə keçdikdə və performans öhdəlikləri yerinə yetirildikdə uçota alınır. Müasir mühasibatlıq standartları (məsələn, MHBS/IFRS) müəssisənin maliyyə vəziyyətini və real fəaliyyət göstəricilərini daha dürüst əks etdirdiyi üçün bu yanaşmanı üstün tutur. Müəssisənin vergi öhdəliklərinin düzgün hesablanması və maliyyə hesabatlarının şəffaflığı üçün gəlirlərin uçotunun düzgün aparılması xüsusilə vacib əməliyyatdır. Bu baxımdan, mühasibat uçotunun nəzəri əsaslarının düzgün tətbiq olunması gəlirlərin tanınmasını dolğun şəkildə təmin etməklə müəssisənin maliyyə dayanıqlığını, etibarını artırır. Məhz buna görə də, gəlirlərin uçotu mühasibatlığın həm praktiki, həm də nəzəri aspektlərini birləşdirərək elmi baxımdan müəssisənin maliyyə şəffaflığını təmin edən əsas maliyyə, informasiya mexanizmidir.

İqtisadi nəzəriyyələrdə gəlir istehsal və xidmət fəaliyyəti nəticəsində əldə edilən əlavə dəyərin pul formasında ifadə olunması kimi qəbul edilir. Məhz bu baxımdan iqtisadi nəzəriyyələrdə gəlir aşağıda qeyd olunduğu kimi təsnifləşdirilir:

- gəlir - xidmətlərin reallaşması və məhsul istehsalının əsas nəticəsidir;
- müəyyən dövr ərzində müəssisənin əldə etdiyi ümumi dəyərin bir hissəsi gəlir hesab edilir;
- gəlir – iqtisadi baxımdan sadəcə pul daxil olmaların deyil, eyni zamanda istehsal resurslarından səmərəli istifadəni ifadə edir.

Ümumi Daxili Məhsulun (ÜDM) formalaşmasının əsas komponentlərindən biri də gəlir hesab olunur [10, s.14].

Beləliklə, iqtisadi baxımdan müəssisənin fəaliyyət effektivliliyinin ən vacib göstərici gəlir hesab edilir. Gəlirlərin həcmi isə həm bazar tələbləri, həm də istifadə edilən resursların məhsuldarlığı ilə sıx bağlıdır. İqtisadi yanaşmalardan fərqli olaraq mühasibat uçotu prizmasından gəlir - normativ əsaslı dəqiq anlayış hesab edilir və hər hansı müəssisənin fəaliyyəti nəticəsində əldə edilən iqtisadi faydaların artımı hesab edilir. Belə ki, mühasibat uçotu baxımından gəlir aşağıdakı kimi səciyyələndirilir:

- gəlir – müəssisənin kapitalının artması deməkdir. Lakin qeyd etmək lazımdır ki, bu kapital artımı səhmdarların əlavə investisiya yatırması nəticəsində deyil, iqtisadi fəaliyyətin nəticəsi kimi təzahür edir;
- müəssisəyə nağd pul vəsaitlərinin daxil olması gəlirlə eyniləşdirilmir. Gəlir – yalnız öhdəliklərin yerinə yetirildiyi vaxt tanınır;
- gəlir tələb və öhdəliklər üzrə aparılan uçota əsasən hesablama prinsipinə uyğun olaraq iqtisadi fayda əldə edildikdə uçota alınır [12].

Məlum olduğu kimi, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS – IFRS 15) gəlirlərin tanınması istiqamətində beynəlxalq səviyyəli vahid konsepsiya təqdim edir [3, s.145-148]. Standarta əsasən gəlir müəssisələrin fəaliyyəti nəticəsində iqtisadi faydaların daxil olması kimi qəbul edilir və gəlirlərin tanınması beş əsas mərhələ ilə həyata keçirilir:

1. Müştəri və müəssisə arasında iqtisadi və hüquqi öhdəliklərin rəsmiləşdirilməsi (müqavilələrin müəyyənləşdirilməsi).
2. Öhdəliklərin müqavilə əsasında identifikasiyası (hansı xidmətin və ya məhsulun təqdim olunacağı müəyyənləşdirilir).

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

3. Məhsul və ya xidmətin təqdim olunması qarşılığında qiymətin müəyyənləşdirilməsi (müəssisənin əldə edəcəyi pul və ya digər iqtisadi fayda müəyyənləşdirilir).

4. Müqavilə əsasında gəlirlərin müxtəlif öhdəliklər arasında bölgüsü həyata keçirilir.

5. Məhsul və ya xidmətin müştəriyə təhvil verildiyi zaman gəlir tanınır (müqavilədə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi başa çatdıqdan sonra).

Beynəlxalq standartlar əsasında gəlirlərin uçotu müxtəlif sektorlarda (ticarət, sənaye, maliyyə, xidmət və s.) gəlirlərin tanınması üçün universal mexanizm təqdim etməklə bu prosesin daha etibarlı və şəffaf şəkildə həyata keçirilməsini təmin edir [3, s.145-148]. Müqayisə üçün deyə bilərik ki, iqtisadi baxımdan gəlir əsasən dəyərin yaradılması və paylanması ilə əlaqədardırsa, mühasibatlıq baxımından isə müəssisənin kapitalındakı artımı özündə ifadə edən, ölçülə bilən göstərici hesab edilir (Cədvəl 1).

***Cədvəl 1.***

**Mühasibat uçotunda gəlirlərin uçotunun nəzəri əsasları**

| **Gəlirlərin uçotu** | **İzah** | **Əsas prinsiplər** |
|---|---|---|
| Gəlir anlayışı | Müəssisənin əsas fəaliyyətindən əldə etdiyi iqtisadi faydalar | Gəlir müəssisəyə aktivlərin daxil olması və ya öhdəliklərin azalması ilə yaranır.<br>Gəlir artımı ölçülə bilən və etibarlı şəkildə təsdiqlənməlidir. |
| Gəlirin növləri | Əsas və əlavə gəlirlər | Əsas gəlir: müəssisənin fəaliyyət obyektinə birbaşa bağlıdır.<br>Əlavə gəlir: əsas fəaliyyət xaricində yaranan gəlirlər. |
| Gəlirlərin uçot prinsipləri | Gəlirlərin tanınması və ölçülməsi | Tanıma prinsipi: gəlir realizasiya və ya qazanılma əsasına görə tanınır.<br>Ölçmə prinsipi: gəlir müvafiq qiymətlərlə ölçülür.<br>Əsas prinsiplər: etibarlılıq, dəqiqlik, uyğunluq, şəffaflıq. |
| Gəlirlərin tanınması | Müxtəlif fəaliyyətlər üzrə gəlirin uçotu | 1. Satış müqaviləsi və ya xidmət göstərmə faktı.<br>2. Gəlirin ölçülməsi və qeydiyyata alınması.<br>3. Maliyyə hesabatında əks etdirilməsi. |
| Gəlirlərin qeydiyyatı və hesabat | Gəlirlərin sənədləşdirilməsi | Hər bir gəlir əməliyyatı müvafiq sənəd ilə təsdiqlənməlidir.<br>Gəlirlərin uçotu əsas mühasibatlıq jurnal və dəftərlərində aparılır. |
| Mübahisəli məsələlər | Gəlirlərin uçotunda yaranan çətinliklər | Gəlirlərin realizasiyası və tanınması vaxtı.<br>Əlavə xidmətlərin və bonusların gəlirə təsiri.<br>Vergi və uçot standartlarının fərqliliyi. |

***Mənbə: https://www.IFRS.org/issued-standards/list-of-standards/IFRS-15-revenue-from-contracts-with-customers/ (müəllif tərəfindən qeyd olunan mənbə əsasında hazırlanmışdır)***

IFRS 15 standartı isə qeyd etdiyimiz bu yanaşmaları birləşdirərək həm nəzəri, həm də praktiki baxımdan təkmil normativ mexanizmlər təqdim edir.

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

***Gəlirlərin uçotunun məqsədləri.***

Müəssisənin maliyyə vəziyyətinin gəlirlilik səviyyəsinin, eləcə də iqtisadi dayanıqlığının qiymətləndirilməsi baxımından gəlirlərin uçotu zəruri prosesdir. Mühasibat uçotu sisteminin əsas istiqamətlərindən biri olaraq gəlirlərin uçotu sadəcə texniki əməliyyat deyil, həmçinin strateji baxımdan mühüm olan bir prosesdir. Bu baxımdan gəlirlərin uçotu çoxşaxəli məqsədləri özündə birləşdirir:

***Məqsəd 1*** **-** Müəssisənin fəaliyyətinin nəticələri haqqında müqayisə edilə bilən, obyektiv, şəffaf informasiya təqdim etmək. Bu məqsəd manipulyasiya hallarının qarşısını alır, maliyyə hesabatlarının etibarlığını qoruyur.

***Məqsəd 2*** **-** Müəssisədaxili qərarların qəbul edilməsində gəlirlərin uçotu böyük strateji əhəmiyyətə malikdir. Eyni zamanda, gəlirlərin düzgün uçotu investorların kapital yatırımı qərarlarına əhəmiyyətli təsir göstərə biləcək etibarlı məlumat bazası rolunu oynayır.

***Məqsəd 3*** **-** Müəssisənin gəlirlərinin uçotu, gəlirlərin obyektiv və dəqiq tanınması, eyni zamanda vergi sisteminin şəffaflığını və ədalətliliyini təmin edir.

***Məqsəd 4*** **-** Gəlirlərin uçotu həm kreditorlar və əməkdaşlar üçün, həm də cəmiyyət üçün çox vacibdir. Bu nüanslar müəssisənin öz öhdəliklərini yerinə yetirmək qabiliyyətinin qiymətləndirilməsində əsas faktor rolunu oynayır. İqtisadi inkişaf, sosial proqramlar müəssisələrin gəlirlərindən asılı olaraq məşğulluq səviyyəsinə də təsir göstərir.

Mühasibat uçotunda gəlirin düzgün tanınması əsas şərtlərdən biri olaraq müəssisənin fəaliyyətini obyektiv şəkildə qiymətləndirilməsi baxımından bir sıra prinsiplərə əsaslanır. Qeyd etməliyik ki, bu prinsiplər həm milli səviyyədə, həm də beynəlxalq səviyyədə mühasibatlıq standartlarının əsasını təşkil edir:

***Müqayisəlilik prinsipi*** – müəssisənin real vaxt ərzində xərcləri və gəlirlərinin müəyyənləşdirilməsidir;

***Akkumulyasiya prinsipi*** – gəlir müəssisənin müqavilə əsasında öhdəliyinin yerinə yetirdiyi anda tanınır. Maliyyə hesabatlarının müəssisənin həqiqi iqtisadi fəaliyyətini əks etdirməsi bu prinsipin əsas mahiyyətidir;

***Ehtiyatlılıq prinsipi*** – müəssisə gəlirləri tanıyarkən ehtiyatlı davranmalı, gəlirlərin şişirdilməsinin qarşısını almalıdır, eyni zamanda əldə edilməsi şübhəli hesab edilən məbləğləri göstərməməlidir;

***Tam açıqlama, şəffaflıq prinsipi*** – maliyyə hesabatlarında sadəcə gəlirin həcmini deyil, eyni zamanda onun mənbələri, müqavilə şərtləri, tanınma vaxtı, ölçmə üsulları haqqında geniş məlumatlar verməyi bir tələb kimi qarşıya qoyur.

Belə ki, gəlirlərin tanınmasının nəzəri prinsipləri maliyyə nəticələrinin daha etibarlı şəffaf və dəqiq şəkildə uçotunun həyata keçirilməsini təmin edir. Bu baxımdan müqayisəlilik prinsipi xərc-gəlir balansını qoruyur, akkumulyasiya prinsipi iqtisadi əməliyyatların mahiyyətini özündə əks etdirir [1, s.194]. Ehtiyatlılıq prinsipi süni şişirtmələrin qarşısını alır, şəffaflıq prinsipi isə müəssisənin maliyyə prosesləri haqqında dolğun məlumat verməsini təmin edir.

***Gəlirlərin təsnifləşdirilməsi*** - müəssisənin maliyyə hesabatlarının düzgün, şəffaf və etibarlı şəkildə hazırlanması üçün gəlirlərin təsnifatlaşdırılması mühüm rol oynayır. Müəssisənin fəaliyyət növündən və xarakterindən asılı olaraq gəlirləri aşağıdakı kimi təsnifatlaşdıra bilərik:

AUDİT 2026, 1 (51), səh. 18-26.
AUDIT 2026, 1 (51), pp. 18-26.
АУДИТ 2026, 1 (51), стр. 18-26.

***Müəssisənin əsas əməliyyat fəaliyyətindən və onun həyata keçirdiyi iqtisadi proseslərdən əldə edilən əsas fəaliyyət gəlirləri*** - bu həm məhsul, həm də xidmət satışından, eyni zamanda istehsal prosesindən (istehsal zamanı ortaya çıxan əlavə məhsul və ya tullantılar) əldə edilən gəlirdir. Qeyd etmək lazımdır ki, fəaliyyət gəlirləri müəssisənin fəaliyyətinin dayanıqlığının və inkişaf potensialının əsas göstəricisidir.

***Maliyyə gəlirləri*** - müəssisənin əsas fəaliyyətindən kənarda həyata keçirdiyi maliyyə əməliyyatları nəticəsində əldə edilir. Bu zaman əldə edilən mənfəət əlavə gəlir kimi qiymətləndirilir və müəssisənin maliyyə sabitliyini nümayiş etdirir. Maliyyə gəlirlərinə dividendlər (investisiya yatırımları nəticəsində müəssisənin digər şirkətlərdən əldə etdiyi gəlir), faiz gəlirləri (bank depozitləri, istiqrazlar və s.) və digər bənzər gəlirlər daxildir. Belə ki, maliyyə gəlirləri hər hansı bir müəssisənin əsas fəaliyyətindən kənar həyata keçirdiyi uğurlu maliyyə strategiyasının göstəricisidir [10, s.14].

***Müəssisələrin həm əsas iqtisadi fəaliyyətindən, həm də maliyyə proseslərindən kənarda hesabat dövründə əldə etdiyi digər gəlirlər də mövcuddur*** - bunlara cərimələr və kompensasiyalar, dövlət subsidiyaları və dotasiyaları daxildir. Eyni zamanda sığortadan alınan ödəniş, mükafatlar və hədiyyələr, adətən dövrü xarakterli olmasa da, müəssisənin maliyyə nəticələrinə də təsir göstərə bilir.

Maliyyə hesabatlarının dəqiq hazırlanmasında əsas və əlavə gəlir mənbələrinin analiz edilməsində, vergi və maliyyə planlanmasının düzgün şəkildə aparılmasında gəlirlərin dəqiq təsnifatlaşdırılması müəssisə üçün vacib proseslərdəndir.

## YEKUN

Beləliklə, mühasibat uçotunda gəlirlərin uçotu hər hansı bir müəssisənin iqtisadi və maliyyə fəaliyyətlərinin nəticələri haqqında obyektiv və şəffaf informasiya verilməsini həyata keçirən ən fundamental mexanizmdir. Gəlir – sadəcə pul axını deyil, həm də aktivlərin artması və ya öhdəliklərin azalmasıdır ki, bu da adi fəaliyyət nəticəsində yaranır və müştəri qarşısında öhdəliklərin yerinə yetirilməsi ilə təsdiqlənir. IFRS 15 standartı gəlirlərin uçotunu vahid 5 addımlı modelə endirir: müqavilə → öhdəliklər → qiymət → bölgü → tanınma. Gəlirin dəqiq tanınması hesablama, ehtiyatlılıq, müqayisəlilik və açıqlama prinsipləri ilə müəyyən edilir; onlardan ən azı birinin pozulması maliyyə hesabatlarını və vergi bazasını təhrif edir. Bu prosesin müqayisəlilik, hesablama, ehtiyatlılıq, şəffaflıq və s. prinsipləri əsasında həyata keçirilməsi müəssisənin maliyyə hesabatlarında müəyyən dövr ərzində gəlirin real həcmini dəqiq müəyyənləşdirməyə imkan verir. Gəlirlərin uçotuna bu cür yanaşmalar müəssisənin mənfəətliliyini ölçməklə kifayətlənmir, eyni zamanda müəssisənin vergi öhdəliklərinin düzgün hesablanmasına, idarəetmə strategiyasının səmərəliləşdirilməsinə münbit şərait yaradır. Bu baxımdan gəlirlərin uçotunun nəzəri əsaslara görə aparılması müasir dövrdə mühasibat sistemlərinin etibarlığının və gələcək iqtisadi qərarların optimallaşdırılmasının əsas təminatçısıdır. Gəlirlərin təsnifatı (əməliyyat, maliyyə, digər) mənfəətin davamlığını təhlil etmək və pul axınlarını proqnozlaşdırmaq üçün zəruridir.

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Barragato, C. A. The impact of accounting regulation on non-profit revenue recognition. *Journal of Applied Accounting Research, 2019, 20*(2), 190-206.

2. Chudgar, A., & Luschei, T. F. National income, income inequality, and the importance of schools: A hierarchical cross-national comparison. *American educational research Journal*, *2009, 46*(3), 626-658.

3. Haig, R. M. The concept of income-economic and legal aspects. In *Forerunners of realizable values accounting in financial reporting.* Routledge, 2020, pp. 140-167.

4. Haggenmüller, S. *Revenue recognition under IFRS 15: A critical evaluation of predefined purposes and implications for improvement* (Doctoral dissertation, University of Gloucestershire). 2019

5. Kida, T. E., & Hicks, D. W. Economic versus accounting income: the impact of education on students' concepts. *The Journal of Economic Education*, 1982, *13*(2), 40-46.

6. Negru, I. Revisiting the Concept of Schools of Thought in Economics: The Example of the Austrian School. *American Journal of Economics and Sociology*, 2013, *72*(4), 983-1008.

7. Oyedokun, P., & Emmanuel, G. Revenue recognition paradox: a review of IAS 18 and IFRS 15. 2016, *Available at SSRN 2912250*.

8. Study Group on Business Income, & Alexander, S. S. *Five monographs on business income*. Study Group on Business Income of the American Institute of Accountants. 1950

9. Wagenhofer, A. The role of revenue recognition in performance reporting. *Accounting and Business Research*, 2014, *44*(4), 349-379.

10. Igamberdiyev, S. Theoretical Foundations of Revenue Accounting in Public Sector Entities. 2025

11. United Nations *System of National Accounts 2008 (SNA 2008)*. New York: United Nations, European Commission, IMF, OECD, World Bank. p. 722, 2009

12. International Financial Reporting Standards - 2018 (IFRS – IFRS 15) https://www.IFRS.org/issued-standards/list-of-standards/IFRS-15-revenue-from-contracts-with-customers/

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

*Agshin Joshgun Khudiyev,*
*Ph.D. Student,*
*Baku Business University,*
*ORCID: https://orcid.org/0009-0005-3476-4089*
*E-mail: khudiev.aqshin@gmail.com*
*© A.J.Khudiyev, 2026*

# THEORETICAL FOUNDATIONS OF REVENUE RECOGNITION IN ACCOUNTING

## A B S T R A C T

**The purpose of the research** is to contribute to increasing the transparency of financial statements of enterprises by systematizing scientific-theoretical approaches to income accounting, definitions of income, recognition criteria and measurement methods of various accounting standards, and more precisely determining the economic essence of income based on modern accounting frameworks.

**The methodology of the research** is systematization, grouping, comparative analysis, logical generalization, economic analysis, normative-legal analysis, etc. methods.

**The practical importance of the research** is related to the fact that it highlights the establishment of a more accurate, transparent and standards-compliant process for recognizing and measuring income in accounting, and provides real application opportunities in terms of deepening theoretical knowledge in the field of accounting.

**The results of the research** is the justification of the five-stage model of the IFRS 15 standard as an optimal approach to accounting for income.

**The originality and scientific novelty of the research** - a systematic analysis, comparative study of the theoretical foundations of income accounting, and scientific clarification of the concept of income were carried out in accordance with the requirements of the correct recognition and measurement of income, global economic changes and International Financial Reporting Standards.

**Keywords:** income, correct recognition and measurement of income, classification of income, International Financial Reporting Standards, tax statements.

**AUDİT 2026, 1 (51), səh. 18-26.**
**AUDIT 2026, 1 (51), pp. 18-26.**
**АУДИТ 2026, 1 (51), стр. 18-26.**

*Худиев Агшин Джошгун оглы,*
*докторант,*
*Бакинский Университет Бизнеса,*
*ORCID: https://orcid.org/0009-0005-3476-4089*
*E-mail: khudiev.aqshin@gmail.com*
*© Худиев А.Дж., 2026*

# ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ПРИЗНАНИЯ ДОХОДОВ В БУХГАЛТЕРСКОМ УЧЕТЕ

## Р Е З Ю М Е

**Цель исследования** – содействие повышению прозрачности финансовой отчетности предприятий путем систематизации научно-теоретических подходов к учету доходов, определений доходов, критериев признания и методов измерения в различных стандартах бухгалтерского учета, а также более точного определения экономической сущности доходов на основе современных систем бухгалтерского учета.

**Методология исследования** - включает методы систематизации, группировки, сравнительного анализа, логического обобщения, экономического анализа, нормативно-правового анализа и др.

**Практическая значимость исследования** - связана с тем, что оно подчеркивает необходимость создания более точного, прозрачного и соответствующего стандартам процесса признания и измерения доходов в бухгалтерском учете, а также предоставляет реальные возможности применения в плане углубления теоретических знаний в области бухгалтерского учета.

**Результаты исследования** - обоснование пятиэтапной модели стандарта IFRS 15 как оптимального подхода к учету доходов.

**Оригинальнось и научная новизна исследования** - систематический анализ, сравнительное изучение теоретических основ учета доходов и научное уточнение понятия дохода, проведенные в соответствии с требованиями корректного признания и измерения доходов, глобальных экономических изменений и Международных стандартов финансовой отчетности.

**Ключевые слова:** доход; корректное признание и измерение доходов; классификация доходов; Международные стандарты финансовой отчетности, налоговые отчеты.

*Məqalə redaksiyaya daxil olmuşdur: 02.12.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 16.01.2026*
*Çapa qəbul olunmuşdur: 10.02.2026*

*Дата поступления статьи в редакцию: 02.12.2025*
*Отправлено на повторную обработку: 16.01.2026*
*Принято к печати: 10.02.2026*

*The date of the admission of the article to the editorial office: 02.12.2025*
*Send for reprocessing: 16.01.2026*
*Accepted for publication: 10.02.2026*